

**Mina RƏŞİD**

## Azad quşam

Ordumuzun gücündən
Qorxub qaçdı yağılar.
Şuşanı azad etdi
Şir biləkli oğullar.

Bu yer sanki möcüzə -
Uca dağlar, şiş qaya...
Dolama yollarıyla
Biz qalxırıq Şuşaya.

Hamımız əsgər olub
Durmuşuq keşiyində
Üzeyirin yurdunda -
Musiqi beşiyində.

Şuşa sənət məbədi,
Gözəlliyin taxtıdır.
Şuşa Azərbaycanın
Mədəni paytaxtıdır.

## Mən əsgər olacağam

Mən həkim olacağam
Sağlam olsun uşaqlar.
Mən də müəllim olum
Qoy, gur yansın işıqlar!

Mən aşpaz olacağam
Acqarına iş olmaz.
Mən dərzi olacağam
Donsuz, köynəksiz olmaz.

Mən də bir alim olub
Yeni kəşflər edəcəm.
Mən səyahətçi olub
Uzaqlara gedəcəm.

Mən astronavt olub
Göy üzünə uçacam.
Mən də bəstəkar olub
Sənə nəğmə qoşacam.

Mən şair olacağam
Sözlərim olsun ordu.
Mən əsgər olacağam
Qoruyacam bu Yurdu!

## Türk bayrağı

Şəhidinin qanından
Doğuldun, türk bayrağı!
Al-qırmızı donunla
Var oldun, türk bayrağı!

Üstündə Ay, ulduzun
Ucalığın rəmzidir.
Hər yan türkün bayrağı
Bir bayraq dənizidir.

Sən həmişə dost oldun,
Qardaş oldun ölkəmə.
Can, Türkiyəm, bilsəydin
Necə heyranam sənə?!

Sən adımsan, andımsan,
Türkümsən, türk bayrağı!
Millətlərin içində
Görkümsən, türk bayrağı!

## Xocalım mənim

*Milli Qəhrəman*
*Çingiz Mustafayevə*

Jurnalistdi o,
Həkimdi, həm də.
Vətən çağırdı
Durmadı gendə.

- "Dözmürəm", - dedi,
Ürəyim orda.
Bu da kameram
Dostumdur darda.

Dillər dastanı
Ünlü Qarabağ.
Nədir qəlbinə
Çəkilən bu dağ?!

Ağ göyərçinlər
Burda vurulmuş.
Düşmən bir cəllad,
Dünya kor olmuş...

Zalım, uşağın
Nədir günahı?
Tutmazmı səni
Körpənin ahı?!

Başıbəlalı
Dərdli şəhərim...
Hönkürdü Çingiz
- Xocalım mənim!..

Çingiz mərd oğul
O, bir qəhrəman.
Vətən unutmaz
Onu heç zaman!

## Təbriz

*Milli Qəhrəman*
*Təbriz Xəlilbəyliyə*

Qarabağ, nə doğmasan,
Necə əzizsən, Vətən!
Sənə qurban olarmı
Söylə, hər yoldan ötən?

Təbriz belə düşünüb
Qarabağa yol aldı.
Atasının qəlbində
Qürurdan dağ ucaldı.

Ata bir qəhrəmandı.
Bir igid oldu oğul.
Fərəhdən Xəlil Rza
Dedi: "Təbrizim, sağ ol!".

Vətən qoynuna aldı
Təbrizini yel kimi.
Adı əbədi qaldı
Qəhrəman oğul kimi.

## Gözəl Bakım

Baxın, Qız qalasının
Başı göylərə dəyir.
Xəzərimin tayı yox -
Şən ləpələr söyləyir.

Nə doğmadır qucağın
Əzizlər qonağını.
Həzin küləklərinlə
Oxşadın yanağımı.

Ay İçərişəhərim,
İç-içə evlərin var.
İçindən çıxmaq olmur
Qərib küçələrin var.

Şirvanşahlar sarayı
Min illərin yaddaşı.
Mənim ziyarət yerim
Babaların başdaşı.

Uca-uca binalar
Ulduzlarla görüşür.
Azərbaycan bayrağı
Günə-aya qovuşur.

Neçə-neçə igidlər
Uğrunda qurban getdi.
Şəhidlər öz qanıyla
Yurdu müqəddəs etdi.

Qoy, kor olsun düşmənin,
Gülsün dostların üzü!
Çiçəklən, əziz Bakım,
Dilimin şirin sözü.

Sən doğma Vətənimin
Vüqarı, baş tacısan.
Gözəl Bakım, ömrümə
Günəştək nur saçırsan!

## Şuşa

Min bir dərdin dərmanı
Şirin, buz bulaqları.
Şuşa dağın başında
Dolanbacdı yolları.

Qarabağ şikəstəsi,
Xarıbülbülün eli.
Natəvanın qələmi,
Vaqifin şirin dili.

Tez gedək Qarabağa,
Baba, nənə, tələsin!
Şuşasız həsrət sizi
Qoy daha öldürməsin!

## Ağdam

Ağdam - sehrli bir səs,
Ağdam - muğam məktəbi.
Burda doğulanların
Başqa cür olur təbi.

Qədirin, Səxavətin,
O, Arifin səsidir.
Ağdam Şahmarın sözü,
Familin nəfəsidir.

Xudu Məmmədov ondan
Aldı könül odunu.
Elmi, ədəbi ilə
Hey ucaltdı adını.

Şahmalının şux səsi
Yenə Ağdamı öyür.
O şəhid xanəndənin
Səsi də "Vətən" - deyir!

Səs qalası qalmadı
Əlində yağıların?!
Allahverdi, Şirintək
Var olsun oğulların!

## Gülümsə, ey general

*Milli Qəhrəman*
*Polad Həşimova*

Polad kimi əyilməz,
Aranlısan, dağlısan
Sən üç rəngə boyanmış
Bir Vətənin oğlusan.

Hamı səndən danışır,
Adın elə doğmadı.
Səni oxşayan sözlər
Kitablara sığmadı.

Gülümsə, ey general,
Azad oldu yurdumuz.
Qürur duy əsgərinlə
Zəfər çaldı ordumuz!

## Şuşaya yağış yağır

Şuşaya yağış yağır
Navalçalar danqıldayır
Yağış yuyur
damları, divarları.
Başı kəsik kötüklər oyanır,
içindən yeni pöhrələr qanadlanır...
Yuyunur meşələr,
ağacların köksünə su çilənir
Göydən yerə nur ələnir.
Yuyunur küçələr, yollar,
Düşmənin izi-tozu yuyulur...
"Şuşanın dolama yolları,
Anamın həsrətli qolları" -
Qələbə havasına könlüm
yağışa qoşulub Şuşaya yollanır,
bu nə gözəl zəfər,
bu nə gözəl gecə
Xəyalımda damlalar da, sevinclə
atılıb-düşür gölməçələrdə...

## Baxın, türkün bayrağına!

Yaxşı baxın, bu bayrağa,
Baxın, türkün bayrağına!
Al-qırmızı günəş kimi
Doğan, türkün bayrağına!

Qırmızı şəhid qanıdı,
Ay-ulduzu nişanıdı,
Türk eşqidi, türk andıdı
Baxın, türkün bayrağına!

Ucaldıqca göyü bəzər,
Haqqı arar, haqqı gəzər,
Maşallah, doymasın nəzər
Baxın, türkün bayrağına!

## Bizim xalçamız

Güllü naxışlı,
Yaşıllı, allı.
Xalça toxudu
Nənəm Sayalı.

Bizim xalçamız
Uçacaq indi.
İçindən atlar
Qaçacaq indi.

Burda dəvələr
Düzülüb yola.
Zınqırovlarla
Səs sala-sala.

Bizim xalçamız
Necə əzizdir.
Tariximizdir,
Keçmişimizdir.

Uçar göylərə
Səmada süzər.
Bizim xalçamız
Dünyanı gəzər.

## Qız qalası

Başı göylərə çatan
Bir qalam var, möcüzə.
Bu sehrli abidə
Nələr söyləyir bizə?

Elə vüqarla durub
Əzəmət simvoludu.
Bir sənət incisidi
İçi sirlə doludu.

Gözəllikdə tayı yox
Nağıldı, əfsanədi.
Adı "Qız qalası"dı
O, Bakının rəmzidi.

## Ramazan

Oruc tutar müsəlman
Bu ay gəldiyi zaman.
İlin ən göyçək ayı
Ramazandı, Ramazan.

Bu ay Səbir ayıdır
Baxma nəfsin sözünə!
Cənnətin qapıları
Açıq olsun üzünə.

Xeyirdi, bərəkətdi,
Mərhəmətdi Ramazan.
Allahdan insanlara
Bir nemətdi Ramazan!

## Ayaqqabı adası

Burda çoxlu çeşid var
Götürürdüm, baxırdım.
Zəhraya mağazadan
Ayaqqabı alırdım.

Zəhra dedi: "Ay aman,
Biz gəlmişik uzaya!".
- Ayaqqabı adası,
Söylədi mağazaya.

## Təndir çörəyi

Xəmir yoğurdu,
Kündələr tutdu.
Nənəm onları
Təndirə yapdı.

Çörəkdən əvvəl
Qoxusu gəldi.
Sonra çörəklər
Bir-bir düzüldü.

Təndir çörəyi
Nə ləzzətlidir.
Nənəmin əli
Bərəkətlidir.

## Qumru

Ağappaq qar içində
Atılıb-düşdü Qumru.
Qartopular düzəltdi
Balaca yumru-yumru.

Sonra qardaşı ilə
Qardan adam düzəltdi.
Buz kimi əllərini
Anasından gizlətdi.